رِسَالَةٌ مُخْتَصَرَةٌ بِعُنْوَانِ:

# «كَيْفَ أَدْخُلُ فِي الإِسْلاَمِ؟»

مُتَرْجَمَةٌ إِلَى اللُّغَةِ: الأذرية

# İslama»

# «necə daxil ola bilərəm?


إِعْدَادُ الْفَقِيرِ إِلَى عَفْوِ رَبِّهِ:

**هَيْثَم بْنِ مُحَمَّدٍ سَرْحَان**

الـمُدرِّس بمعهد الحرم بالمسجد النَّبويِّ -سابقًا- والـمُشرِف على معهد السُّنَّة

https://mahadsunnah.com/


غفر الله له ولوالديه ولمن أعانه على إخراج هذا الكتاب


قامَ بتَرجَمَتِها: إلقار بن أيواز نوروزوف -وفَّقَهُ اللهُ وسَدَّدَهُ-

الطَّبعة الأولى



[حقوق الطَّبع مُتاحةٌ لكلِّ مسلمٍ بدون أيِّ تغييرٍ في المُحتوى]

# İslama necə daxil ola bilərəm?

| Sual: | Cavab: |
|---|---|
| İslama daxil olmaq asandırmı? | Bəli, bunun üçün heç bir vasitəçi və ya araçıya ehtiyac yoxdur. |
| Mən İslama daxil olmağa tələsim yoxsa münasib vaxt və ya bəzi problemlərimi həll etməyi gözləyim? | Tələsmək lazımdır. Çünki onu gecikdirmək çoxlu bəlalara aparır. Sən hər an ölə bilərsən. İslam qazanclı ticarət kimidir. Nə qədər tez ticarətə başlasan o qədər çox qazanc əldə edərsən. |
| İslama daxil olmaq istəyən nə etsin? | Sadəcə şəhadət kəliməsini demək kifayətdir: **“Əşhədu ən lə iləhə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluh.”** |
| Onu hansı dildə desin? | Danışa bildiyi hası dildə istəsə onu deyə bilər. Ərəb dilində deməsi şərt deyil |

| Sual: | Cavab: |
| --- | --- |
| Mənasını başa düşmədən desin? | Xeyr. Mənasını başa düşmək, onun ehtiva etdiyi şeylərə etiqad etmək və gərəkdirdiyi məsələlərə əməl etmək vacibdir. |
| **“Əşhədu”** kəliməsinin mənası nədir? | Mənası: Qəlbimlə etiraf və iqrar edirəm, dilimlə deyirəm və əzalarımlar əməl edirəm. |
| **“Lə iləhə illəllah”** kəliməsinin mənası nədir? | Mənası: Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur. |
| **“Ənnə Muhəmmədən abduhu və rasuluhu”** kəliməsinin mənası nədir? | Mənası: Muhəmməd Allahın qulu və elçisidir. Yəni O quldur ona ibadət edilməz, O elçidir onu yalan saymaq olmaz. Bu şəhadət kəliməsini deyən bunları etməlidir: Onun xəbər verdiklərini təsdiqləməli, əmirlərinə itaət etməli, Onun uzaq durduğu və qadağan etdiklərindən çəkinməli, sünnəsinə tabe olmalı və Onun ardınca getməlidir. |

| Sual: | Cavab: |
|---|---|
| Yaxşı başa düşdüm. İndi mən neyləməliyəm? | Ardımca təkrarla: **“Əşhədu ən lə iləhə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluh.”** |
| İndi mən müsəlmanammı? | Bəli Allaha həmd olsun. Bu Allahın sənə verdiyi fəzilətidir. |
| Müsəlman olaraq indi mənə nə tövsiyyə edirsən? | Sənə tövsiyyəm budur ki, Allaha səni öz dinində sabit saxlamasını dua et. Bu yolda sənə kömək edəcək saleh dostlar seç. İslamı öyrən və Allahın izni ilə sənin islamın güclənənə kimi onu gizli saxla. |
| Ən fəzilətli dua hansıdır? | ﴿ٱهۡدِنَا ٱلصِّرَٰطَ ٱلۡمُسۡتَقِيمَ ٦﴾ **“Bizi doğru yola yönəlt”** (Fatihə surəsi) |
| Ən asan zikr hansıdır? | Ən asan zikr بِسۡمِ ٱللَّهِ O məscidə və evə girərkən və çıxarkən, quran oxuyarkən, ayaqyoluna girməzdən əvvəl, paltarlarını çıxarmazdan əvvəl, dəstəmazdan əvvəl, yemək və içməkdən əvvəl və s. bu kimi |

| Sual: | Cavab: |
|---|---|
| | yerlərdə deyilir. |
| İslama daxil olmazdan qabaq etdiyim günahların hökmü nədir? | İslam özündən öncə edilən günahları silir. Yalnız qul haqqlarından başqa. Onların haqqını öz sahiblərinə ödəmək vacibdir. |
| Şəhadət kəlimənsini dedikdən sonra mənim üzərimə vacib olan nədir? | Sənin üzərinə vacib olan qüsul almaqdır. |
| Nə üçün qüsul alım? | **Birincisi:** Müsəlman nə üçün deməli deyil. O ﴿سَمِعْنَا وَأَطَعْنَا﴾ **"Eşitdik və itaət etdik"** (Nur surəsi 51) deməlidir.<br>**İkincisi:** Qüsl alırsan ki, daxilini təmizlədiyin kimi zahirini də təmizləyəsən. |
| Yaxşı, necə dəstəmaz alım? | Qəlbində qüsl almağı niyyət edib **"Bismilləh"** deyirsən. Sonra bütün bədənini su ilə yuyursan. |

| Sual: | Cavab: |
|---|---|
| Qüsuldan sonra nə edim? | Namazın vaxtı daxil olubsa Allahın izni ilə namaz qılmalısan. |
| Namaz qılmaq mənə çətin olmaz? Çünki orada mənim bilmədiyim sözlər və əməllər var. | İslam asanlıq dinidir çətinlik dini deyil. Allaha həmd və şükürlər olsun. |
| Necə namaz qılım? | Ya mənə baxıb mənim kimi namaz qıl ya da namazı öyrədən videoları izlə. Sünnə İnstitutunun kanallarında bu risalənin sonunda göstərilən linklərə uyğun olaraq bir neçə dildə videolar tapa bilərsən. |
| Namazdan başqa nə etməliyəm? | Sənə İslamın üzərində bina olunduğu beş rükununu sonra imanın altı rükununu öyrənməyi tövsiyə edirəm. Çünki bununla islamını və imanını düzgünləşdirən hər şeyi tamamlayırsan. |

| Sual: | Cavab: |
|---|---|
| İslamı öyrənmək üçün hansı saytlara müraciət etməyimi məsləhət görürsən? | Mən sənə Səudiyyə Ərəbistanı Krallığının böyük alimlərinin və ictimai dəvət cəmiyyətlərinin internet saytlarını məsləhət görürəm. |
| Müsəlman olmayan qohumlarımla necə müamilə edim? | Peyğəmbərin ﷺ qeyri-müsəlmanlarla müamilə etdiyi kimi sən də onlarla elə müamilə et. O, dili, əxlaqı və rəftarı ilə İslama dəvət edirdi. |
| İslamı qəbul etmək istəyənlər var, amma ailəsinə İslamı qəbul etdiklərini demək istəmirlər, onların hökmü nədir? | Kim İslamı qəbul edərsə, İslamı qəbul etməsi onunla Allah arasında olduğu üçün heç kimə İslamı qəbul etməsi barədə məlumat vermək məcburiyyətində deyil. |
| İslamda ən fəzilətli kitab hansıdır? | Ən fəzilətli kitab QURANİ KƏRİM-dir. Çünki o Allahın kəlamıdır. |
| Quranda ən mühüm surə hansıdır? | Quranda ən mühüm surə fatihə surəsidir. Buna görə də biz onu namazın bütün rükətlərində oxuyuruq. |

| Sual: | Cavab: |
|---|---|
| Quranda ən əzəmətli ayə hansıdır? | Quranda ən əzəmətli ayə “Ayətul-Kursi”-dir. |
| Quranı necə oxuya bilərəm? | Quran dərsləri almaqla və Şeyx Huzeyfi, Şeyx Husari və başqaları kimi qariləri dinləməklə. |
| Quranı necə başa düşüm? | Bunu, islam ümmətinin tanınmış alimlərinin yazdığı təfsir kitablarını oxumaqla başa düşə bilərsiniz. |
| Quranın təfsirini haradan tapa bilərəm? | Bu risalənin sonundakı “kitab yüklə” linkini nəzərdən keçirməyi məsləhət görürəm. |
| Mənə Qurandan sonra nə oxumağı məsləhət görürsən? | Sənə Peyğəmbərin ﷺ səhih hədislərini oxumağı məsləhət görürəm. |
| Peyğəmbərin ﷺ hədisləri ilə bağlı ən yaxşı kitab hansıdır? | Ən yaxşı və ən səhih hədis kitabı “Səhihul-Buxari” kitabıdır. Ümmət bu kitabın səhih olmasında icma edib. Hörmətli alimlər də bu kitabdan razı qalıblar. Bu risalənin sonundakı “kitab yüklə” linki |

| Sual: | Cavab: |
| --- | --- |
| | nəzərdən keçirməyi məsləhət görürəm. |
| Peyğəmbərin ﷺ sünnəsində ən mühüm hədis hansıdır? | Ən mühümü dinin üç mərtəbəsini izah edən Cəbrail hədisidir: İslam, iman və ehsan. |
| İslamı öyrənə bilməyəcəyimdən qorxuram? | Qorxma! Əksinə, Allaha təvəkkül et ki, Allah sənin işində sənə kömək olsun. Çünki din asandır. Allah sevdiyi və razı qaldığı işlərdə sənə uğur nəsib etsin.<br><br>Risalənin sonundakı linkdə bizim institutumuzda, Sünnə İnstitutunda bizimlə pulsuz onlayn təhsil ala bilərsiniz.<br><br>Son söz olaraq sənə Peyğəmbərin ﷺ bu sözünü nəsihət edirəm:<br><br>**“Sənə fayda verən işlərlə məşğul ol, Allahdan yardım istə və aciz olma”**. |

# Sünnə inistutu kanalının linkləri:

Telegram linki

Facebook linki:

Sünnə inistutunun saytı:

WhatsApp linki

Twitter linki:

İnstagram linki

Kitab yüklə linki:

YouTube kanalı